Monitorinq və qiymətləndirmə

MONİTORİNQLƏR DAVAMLI OLMALIDIR

Xanım İsmayılova
Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun elmi işçisi

Azərbaycan təhsil sistemində qarşıda duran əsas məsələ təhsil sistemini yeniləşdirmək və dünya təhsil sisteminə uyğunlaşmaqdır. Bu məsələ ilə bağlı olaraq təhsil sistemində uğurlu islahatlar aparılmışdır. Bu islahatların nəticəsində "Azərbaycan Respublikasında ümumi təhsil Konsepsiyası (Milli Kurikulum)" kimi konseptual sənəd meydana gəlmişdir və bu sənəd, ilk növbədə, ibtidai siniflərdə tətbiq olunmağa başlanmışdır. Ümumtəhsil məktəblərində təlimin əsas məqsədlərini təyin etməklə təlim nəticələrinə nail olmaq istiqamətində xeyli müsbət təcrübə toplanmışdır.

Kurikulumun tətbiqi artıq öz nəticələrini verməkdədir. İbtidai siniflərdə kurikulumun tətbiqi şagirdlərdə həm yazı, oxu, həm də problemlərin həlli, mühakiməyürütmə və isbatetmə, ünsiyyətqurma, əlaqələndirmə, təqdimetmə kimi bacarıqları inkişaf etdirir.

Kurikulum, hər şeydən əvvəl, özündə müəyyən həyati bacarıqlara malik hərtərəfli şəxsiyyət yetişdirmək məqsədini cəmləşdirir. Kurikulumun hansı səviyyədə reallaşmasını öyrənmək məqsədi ilə yerlərdə monitorinqlər təşkil edilir. Maarifləndirmək məqsədilə təlim treninqlərindən əlavə müxtəlif təlim kursları, beynəlxalq məsləhətçilərin iştirakı ilə seminarlar, tədbirlər də təşkil edilir. Bu kurslarda müəllimlər müasir dərslərin quruluşu, mövzuların tədrisində standartların seçilməsi, məqsədin müəyyən olunması və qarşıya qoyulan problemlərin həll olunmasında uyğun təlim üsullarından istifadə yolları ilə tanış olur, gənc nəslin hərtərəfli şəxsiyyət kimi yetişdirilməsinin əsasını dərk edirlər.

Şagirdlərin zehni, məntiqi təfəkkürü və düşüncə tərzinin inkişaf etdirilməsində mühüm rol oynayan riyaziyyatın tədrisində də ən yeni üsullardan istifadə ön plana çəkilmişdir. Bu da təbiidir. Çünki Cenevrə Beynəlxalq Konqresində deyildiyi kimi "Riyazi təhsil milliyyətindən, cismindən, vəziyyətindən və fəaliyyətindən asılı olmayaraq hər bir insanın səadətidir".

Ümumi təhsilin Milli Kurikulum çərçivə sənədində müəyyən edilmişdir ki, ümumtəhsil məktəblərində riyaziyyatın tədrisi vasitəsilə ümumi orta təhsil səviyyəsində gündəlik həyati problemlərin həlli, orta təhsil almaq üçün zəruri riyazi biliklərin əldə edilməsi, şagirdlərin intellektual inkişafına, uğurlu praktik fəaliyyətə zəmin yaradan təfəkkür tərzi formalaşır, sivilizasiyanın və cəmiyyətin inkişafında riyaziyyatın müstəsna əhəmiyyəti haqqında dolğun təsəvvürlərin yaradılması, riyaziyyat sahəsi üzrə müvafiq bacarıqlar əldə etməsi, müxtəlif məlumatların məntiqi cəhətdən dərk və təhlil edilməsinin mahiyyətcə başa düşülməsi təmin olunur. Aydındır ki, baza riyazi hazırlığı almadan heç kəsi fizik, kimyaçı, mühəndis, texnik, psixoloq, iqtisadçı və s. ixtisas sahibi kimi formalaşdırmaq mümkün deyildir. Bundan əlavə, hər bir insan gündəlik həyatda, əməli fəaliyyətdə riyaziyyatla qarşılaşır və əldə etdiyi riyazi bilik və bacarıqlarının

olmasından faydalanır. Onun təməli isə elə I sinifdə, ibtidai məktəbdə qoyulur.

Kurikulumda ibtidai siniflər üzrə riyaziyyatdan beş məzmun xətti (ədədlər və əməllər, cəbr və funksiyalar, həndəsə, ölçmələr, statistika və ehtimal) müəyyənləşdirilmişdir. Ortaya çıxan problemlərin həllində şagirdlərin mühakiməyürütmə, isbatetmə, əlaqələndirmə, tətbiqetmə, ünsiyyətqurma bacarıqlarının inkişaf səviyyəsini müəyyənləşdirmək məqsədinə görə bu beş məzmun xətti standartların mahiyyətindən doğur. Bütün bunların mahiyyətinin üzə çıxarılmasında monitorinqlər başlıca rol oynayır. Bu məqsədlər monitorinq zamanı özünü daha qabarıq büruzə verir. İbtidai sinif müəllimlərinin dərslərinin dinlənilməsi, seçilmiş standartlardan çıxarılan meyarlar əsasında təşkil olunmuş testlər vasitəsi ilə şagirdlərlə test tapşırıqlarının aparılması, şagirdlərin nailiyyətlərinin qiymətləndirilməsi vəziyyətinin siniflərdə müşahidə olunması məsələnin mahiyyətinə tam aydınlıq gətirir.

Aparılan monitorinqlərdə müəllim peşəkarlığını müəyyən etmək üçün 15 parametr əsasında 5 ballıq şkala üzrə dərslərin təhlili daha səmərəli sayılır. Bu prosesdə müşahidə olunur ki, müəllim düzgün məqsədlər müəyyənləşdirə bilirmi, problemləri düzgün həll edə bilmək üçün iş formalarını və iş üsullarını düzgün seçə bilirmi? Müəllimlər müzakirə, Venn diaqramı, karusel, BİBÖ kimi dərs üsullarından geniş istifadə edirlər. Bəzi dərslərdə müəllimlərin əksəriyyətinin qrup və kollektivlə iş formalarına üstünlük verməsi daha çox nəzərə çarpır. Təsadüfi deyil ki, şagirdlərin öncədən qruplarda oturdulması, yaxud dərsin kollektivlə aparılması halları daha çox istifadə olunur. Xüsusən İKT-dən istifadə zamanı düzgün qurulmuş elektron dərslər daha uğurlu olur. Lakin o da var ki, müəllimlərin İKT bacarığının az olması halları hələ də qalmaqdadır. Elektron dərslərin tətbiqində proyektorların azlığı kimi çətinliklər də vardır. Buna baxmayaraq, fəal müəllimlər müxtəlif vasitələrdən – diaqramlardan, cədvəllərdən, musiqi parçalarından, şəkillərdən də istifadə etməklə dərslərini daha canlı qururlar. İndi artıq öyrətmə prosesinə münasibət də dəyişmişdir. Ən başlıcası dərslərdə şagird fəallığı gücləndirilir, sərbəstlik və müstəqillik daha öncül əhəmiyyət kəsb edir, təhsilin keyfiyyətinin yüksəldilməsi üçün lazım olan parametrlərə düzgün yanaşmaq təlimin məqsədinə çevrilir.

Riyaziyyat fənn kurikulumunun tətbiqi vəziyyətinin öyrənilməsi ilə bağlı aparılan tədqiqatlar, xüsusən riyaziyyat fənn kurikulumunun tətbiqi vəziyyətinin öyrənilməsi zamanı dinlənilən dərslər də kurikulumun üstünlüklərini təsdiq edir.

Bu fənnin tədrisində şagirdlərin dərketmə imkanlarının artırılmasına, onların maraq və qabiliyyətlərinin inkişafına xüsusi diqqət yetirilməlidir. Yeni təlim metodları riyaziyyatın mahiyyətini başa düşmək əsasında şagirdlərdə ümumiləşdirici təfəkkürün inkişaf etdirilməsinin zəruriliyinə inam yaradır. Şagirdlər onu da dərk edir ki, riyaziyyat digər elmlərin inkişafında mühüm yer tutur və həqiqətən, ona açar olur. Çünki müasir təlim özü şagirdin maraq, meyil və tələbatlarına, onun bilik səviyyəsinin imkan və fəallığına vacib komponent kimi baxır. Həm də çoxdan sübut olunmuşdur ki, riyaziyyat ibtidai təlimdə açar rolunu oynayan fənlərdən biridir.

Araşdırmalar zamanı o da məlum olur ki, müəllimlər standartları düzgün seçir. Məsələn, Elitar gimnaziyada proyektor olduğundan müəllimlər elektron dərslər hazırlayır, onu ən yüksək səviyyədə qururlar. Məsələn, IV sinifdə Qənirə Nurullayevanın dərsində: "İki rəqəmli ədədə bölmə, qismәti təxmini hesablama" mövzusu üzrə iş prosesi də bunu əyani göstərirdi. Dərs müəllim tərəfindən tam olaraq slaydlarla qurulmuşdu.

İKT olmayan məktəblərdə dərs prosesinin uğurlu alınması üçün müxtəlif əyaniliklərdən, hazır diaqramlardan, cədvəllərdən, rəngli şəkillərdən, musiqi parçalarından istifadə edirlər. Müəllimlər sinfin işinin təşkilində kiçik və böyük qruplarla, cütlərlə iş təşkil edirlər ki, bu da onlarda əməkdaşlıq, kollektivdə işləmə bacarığını formalaşdırır. Həmçinin müəllimlər müşahidəetmə, müzakirə, rollu oyunlar, beyin həmləsi, venn diaqramı kimi üsullardan istifadə edirlər. Məsələn, Xəzər rayonu 26 nömrəli məktəbin müəllimi İbrahimova Aynur "Kəsrlər" mövzusunda rollu oyundan yararlanaraq dərsi elə qurur ki, şagirdlər əyani olaraq almanı hissələrə ayırıb kəsr anlayışına yiyələnirlər. Həmçinin Sumqayıt şəhər Təfəkkür liseyində müəllim Rəhimova Mehriban "Məlumatı araşdır və təhlil et" mövzusunda lövhədə Venn diaqramını təsvir etməklə verilən tapşırığı araşdıraraq diaqramda yerləşdirməyi tapşırır. Şagirdlər təhlil nəticəsində müstəqil olaraq məlumatın özünəməxsus, fərqli cəhətlərini diaqramda yerləşdirirlər. Dərs prosesində motivasiyanın məqsədəuyğun qoyulmasına diqqət yetirilir. Şagirdlər araşdırmalar apararaq təqdimetmə bacarığının düzgün formalaşdırılması baxımından işləri daha düzgün ifadə etməyi öyrənirlər.

Uşaqlar başa düşürlər ki, "Riyaziyyatı bilməyən digər elmlərin heç birisini bilməz, hətta özünün biliksizliyini də müəyyən edə bilməz" (R.Bekon). Görkəmli alman alimi Taus təsadüfən deməmişdir ki, "Riyaziyyat elmlərin şahıdır".

Dərsdinləmələr zamanı problemlər aşkar edilsə də uğurlar onu hər yerdə üstələyir.

Müəllimlərin bəziləri cari planlaşdırma yazmadıqlarından dərsin məqsədini, formasını, istifadə edəcəkləri üsulları, təlim tapşırıqlarını, qiymətləndirmə vasitələrini qarışıq salırlar. Təlim metodlarından düzgün istifadə edə bilməyən müəllimlərin təlim prosesləri ənənəvi təlim metodlarına əsasən qurulması ilə nəticələnir. Bəzi müəllimlər hələ də bu sahədə çətinliklər çəkirlər. Bəzən müəllimlərin əsasən kollektiv və qruplarla iş formasına üstünlük verməsi göstərir ki, hələ də mütərəqqi üsullar tam öz yerini almamışdır. Təsadüfi deyildir ki, fərdi iş forması ilə cütlərlə işləmə bacarığının aşağı səviyyədə olması da bununla əlaqədardır.

Təlimin belə forması şagirdlərin birbirini yaxşı başa düşməsinə, əməkdaşlığına, məsuliyyətlərini dərketmələrinə imkan yaradır. Lakin məzmun uyğun gəlmirsə, nə fərdi iş, nə cütlərlə iş, nə böyük və ya kiçik qruplarla iş, nə də ki, kollektiv iş öz nəticəsini verir. Monitorinqlər zamanı bunların səmərəliliyi, yaxud qeyri-səmərəliliyi dərhal özünü göstərir. Ona görə də müəllimin çox hallarda şagirdləri formal olaraq bu fəaliyyətlərə cəlbi effektli olmur. Lakin bir məsələ unudulmamalıdır ki, ənənəvi metodlardan fərqli olaraq, fəal təlim metodlarında dərsin öyrənilməsində şagirdlərin hamılıqla iştirak etməsinə ciddi səy göstərilir.

Araşdırmalar göstərir ki, hələ də dərslərin ənənəvi şəkildə qurulması hallarına son qoyulmamışdır. Bu da kurikulumlarda nəzərdə tutulan standartların reallaşmasına az mane olmur.

Məzmun standartları seçilərkən onların bilik və bacarıqlar baxımından uyğunluğuna lazımi əhəmiyyət verilməli, əlaqəli təlim məqsədlərinin müəyyənləşdirilməsinə ardıcıl fikir verilməlidir. Belə problemlər dərs ilinin sonunda şagirdlərin təlim nailiyyətlərində ciddi boşluqların baş verməsinin qarşısını indidən alır.

Monitorinqlər zamanı məktəblərdə keçirilən kiçik və böyük summativ qiymətləndirmələrin vasitələrinin tərtib olunma mexanizminin öyrənilməsinə səy edilməlidir. Araşdırmalar göstərir ki, "Qiymətləndirmə konsepsiyası" əsasında hazırlanmış "Ümumtəhsil məktəblərində məktəbdaxili

qiymətləndirmənin aparılması qaydaları"nın I-IV siniflərdə tətbiqi ilə bağlı müəllim və məktəb rəhbərlərinin iştirakı ilə geniş müzakirələrin keçirilməsi də müəllimlərə yaxından kömək edir. Hər bir müəllim qarşısına məqsəd qoyur ki, təlimin ilk mərhələsindən başlayaraq riyaziyyatın mahiyyətini onu öyrənənlərə tədricən anlatmaq lazımdır.

Monitorinq aparılarkən qiymətləndirmə materialı bir daha nəzərdən keçirilməli, onun mahiyyəti şagirdlərə çatdırılmalıdır. Nəzərə alınmalıdır ki, "təhsil bilik vermək və müstəqil düşünmək qabiliyyətini inkişaf etdirməkdən ibarət iki vəzifəni yerinə yetirməlidir" (B.Passel).

Böyük summativ qiymətləndirmə vasitələri də sistemli şəkildə izlənilməli, obyektiv nəticələr əldə olunmalıdır. Böyük summativ qiymətləndirmə aparılarkən (I və II yarımilin sonunda) bu prosesə müəllim daha məsuliyyətlə yanaşmalıdır.

Davamlı və dinamik xarakter daşıyan şagird nailiyyətlərinin qiymətləndirilməsi prosesində şagirdlərin fəaliyyətlərinin daim nəzarətdə saxlanılması onların irəliləyişlərinin, yaxud irəliləmələrinin izlənilməsi və bu məqsədlə monitorinqlərin aparılması ciddi tələb kimi qarşıya qoyulur.

Nəzərə almaq lazımdır ki, monitorinqlər qiymətləndirmədə əsas vasitələrdən biridir. Məhz bu monitorinqlərin nəticələri təlim prosesinin optimal qurulması, müəllimlərin işinin təkmilləşdirilməsi, habelə kurikulumlarda və dərsliklərdə zəruri dəyişikliklərin olması haqqında müvafiq qərarlar qəbul etməyə imkan verir. Bunlar isə, digər fənlər kimi riyaziyyatın tədrisində daha ön plana keçir. Burada bir məsələ də unudulmamalıdır ki, təlimdə illərdən bəri sınaqdan keçmiş və müvəffəqiyyət qazanmış didaktik prinsiplər tamamilə atılmalıdır. Böyük didaktika yenə də müəllim yardımçısıdır.

Araşdırmalar göstərmişdir ki, riyaziyyat fənn kurikulumu tətbiq edilməsi nəticəsində şagirdlərin diqqəti problemlərin həlli, mühakiməyürütmə və isbatetmə, ünsiyyətqurma, əlaqələndirmə, təqdimetmə, axtarışa, düşünməyə, müqayisə etməyə, nəticə çıxarmağa yönəldilməli, onlarda idraki bacarıqların, riyazi-məntiqi təfəkkürün inkişafına şərait yaradılmalıdır. Şagirdlərdə araşdırmaq, sistemləşdirmək, təhlil etmək, fərqləndirmək kimi yeni keyfiyyətlər formalaşdırılmalıdır. Şagird passiv mövqe tutmaqdan çəkindirilməli, onların bir şəxsiyyət kimi təlim prosesinin mərkəzində olması təmin edilməlidir. Bununla əlaqədar olaraq, şəxsiyyətə müxtəlif bilik sahələrində yaradıcı fəaliyyətə daxil olmaq imkanı yaratmaq üçün riyazi təlimdə olan ən başlıca meyarlar ön plana çəkilməlidir. Bu, həm də riyaziyyatın mahiyyətini başa düşməkdə onlara yardımçı olacaqdır.

Göründüyü kimi, müəllim dərsdə şagirdi təlim prosesinin bərabərhüquqlu üzvünə çevirmək üçün bütün yaradıcılıq potensialını işə salmalıdır.

Onu da qeyd etmək lazımdır ki, Təhsil haqqında Qanuna əsasən 2010-cu ildə "Ümumi təhsil pilləsinin dövlət standart və proqramları (Kurikulumları)" yenilənib prinsip şəkildə qəbul edilmişdir. Buna müvafiq olaraq, Təhsil Problemləri İnstitutu tərəfindən "Ümumi Təhsilin fənn standartları I-XI siniflər" sənədi də hazırlanmış və kitabça şəklində çap olunmuşdur. Artıq müəllimlərin əlində çox mükəmməl sənədlər var ki, məhz onların köməyilə təhsilimizin məzmununun daha da təkmilləşdirilməsi, bu sahədə müəllimlərin daha uğurlu nəticələr qazanması problemi də öz həllini tapacaqdır.

Rəyçi: pedaqogika üzrə fəlsəfə doktoru E.Məmmədova

* 7 "Azərbaycan məktəbi" № 2